

Elbariz MƏMMƏDLİ

## QƏRİBSƏYİRSƏN

Qərib duyğuların özgə tamı var,
Olur ki, qəm üçün qəribsəyirsən.
Güllərin bağrında ulduza dönən,
Bircə şəbnəm üçün qəribsəyirsən.

Keçir ürəyindən yurdun havası,
Körpə şıltaqlığı, cocuq davası.
Elə bil sinənə çiləyir yazı,
Bütün aləm üçün qəribsəyirsən.

Vaxtın o üzündə qəmə tuş gələn,
Ağrısı ürəyə, qəlbə xoş gələn,
Qayıdıb üstünə əliboş gələn,
Bir acı dəm üçün qəribsəyirsən.

Qaçmaq imkansızdı, vaxtın əlindən,
Neçə arzu çıxıb bəxtin əlindən,
Boylanıb aşağı ömrün zilindən,
Yaşanmış bəm üçün qəribsəyirsən.

## ÖMRÜMÜN XATİRƏ YÜKÜ

*Ömür bizi nə qədər uzaqlara qovub aparsa da, uşaqlıq xatirələri duyğularımıza əbədi hakimdir.*

Ötənlər ömrümün xatirə yükü,
Elə darıxıram, o çağlar üçün.
Hər sözdə bağrımın başı göynəyir,
Birgə böyüdüyüm uşaqlar üçün.

İllər ayırıbdı o vaxtdan bizi,
Aradan sıralı fəsillər keçib.
Amma ki, uşaqlıq xatirələri
Həmişə ürəkdən təzə-tər keçib.

Tutub cilovundan saxlamaq olmur,
Aylar qaçaraqdı, illər yeyindi.
Köhnə sevdalara dönmək istəyi,
Təkcə duyğularda yaşayır indi.

Çılpaq təpələrin bağrı xəzan tək,
Bizsiz cığırlar da pozulub başdan.
Körpə duyğumuzdan keçən mələklər,
Çoxdan ötüb keçib, biz olan yaşdan.

Həsrətdə ötürüb son payızı da
Sozala-sozala saralan otlar.
İndi duyğumuza qənim kəsilib,
Ağac budağına yazılan adlar.

Qış gəlib, yollara yenə qar düşüb,
Həniri kəsilib çöldə quşların.
Həsrətdən gözünün yaşı tökülür,
Damlardan asılan buz qılıncların.

Kimsə sıramızı tərk edib, deyən
Niyə, sıramızın səfi pozulub?
Biz uzaq düşəli, elə bil orda
Torpağın, daşın da kefi pozulub.

İndi yol gedirik - üzü qüruba
Yenə ömrümüzə uşaqlıq hakim,
Bütün duyğuları verək, saxlasın,
Sırada sonuncu kim olacaq, kim?

## ARASINDA

Nə danışdıq söz qurtardı,
Görüşməyə üz qurtardı,
Qovuşmamış yaz qurtardı,
Yazla qışın arasında.

Əzəldən işi bəd imiş,
Həsrətlə həmsərhəd imiş,
Qismət keçilməz sədd imiş,
Gözlə qaşın arasında.

Əbəs, özümü yıxıram,
Dərdin dağına çıxıram,
Hər gün yoluna baxıram,
İki daşın arasında.

## GÖZƏL

Üzü ümidə yaşadı,
Dərd uda-uda yaşadı,
Təkcə yuxuda yaşadı,
Eşqi çin olmayan gözəl.

Nə sevildi, nə yarıdı,
Saflıqda zirvə qarıdı,
Nəfsini daşa sarıdı,
Günü-gün olmayan gözəl.

Gəncliyi çapardı, getdi,
Nəyi var apardı, getdi,
Bu gözəl qarıdı, getdi,
Toy-düyün olmayan gözəl.

## KİMİ

Səni elə gözləyirəm,
Baharı gözləyən kimi.
Örpəyinə həsrət dağlar,
İlk qarı gözləyən kimi.

Hələ içimdə ümid var,
Ömrü əzab, zamanı dar.
Səhrada tənha ağaclar,
Suları gözləyən kimi.

Gözüm yolda, sübh çağından,
Asılır yolun ağından.
Həsrətəm, bağban bağından,
Nübarı gözləyən kimi.

## HEYİF

Bu qış da belə sovuşdu,
Yaz gəldi, görmədim səni.
Mən ki, həsrətin əlinə,
Bilərək vermədim, səni.

Deyəsən, yolun uzandı,
Bu nə ağır imtahandı.
Mən uduzdum, sən qazandın,
Könlümcə dərmədim səni.

Yollar keçmədim adınla,
Dağ yarmadım inadınla.
Könül oxşayan dadınla,
Sinəmə sərmədim səni.

Adınla adlanan kimi,
Adına atlanan kimi.
Bir ağ atlı oğlan kimi,
Zirvəyə sürmədim səni.

Dərmədiyim gülə heyif,
Tutmadığım ələ heyif.
Aya heyif, ilə heyif,
Çələng tək hörmədim səni.

## ŞAİR ÖMRÜ

Bu da bir sevda ömrü,
Yaz ömrüydü, yaşadıq.
Bütün dərd-ələmiylə,
Düz ömürdü, yaşadıq.

Umduq, güvəndik sözə,
Döndü dilimiz közə.
Sətirlərlə üz-üzə,
Söz ömrünü yaşadıq.

Gördük qanadlı, ömrü,
Duyğusu atlı ömrü.
Məhəbbət adlı ömrün,
Öz ömrünü yaşadıq.

6 may 2017
WWW.KASPI.AZ
SƏRBƏST